**“Şəffaflıq Azərbaycan” Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyinin təşkilatçılığı və**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat İdarəsinin iştirakı ilə**

**2013-ci il 17 May tarixində**

# Notariat xıdməti: problemlər və islahatlar

**mövzusunda keçirilən**

**Dəyirmi Masanın yekunu və verilən tövsiyələr**

***Ön söz***

*Bu tövsiyələr “Şəffaflıq Azərbaycan” təşkilatı tərəfindən Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentiliyinin (USAID) maliyyə dəstəyi əsasında həyata keçirilən Azərbaycan Şəffaflıq Tərəfdaşlığı (APT) layihəsinin ictimai müzakirələr komponenti çərçivəsində hazırlanmışdır və donorların rəsmi mövqeyini əks etdirməyə bilər.*

Notariat – vətəndaş və hüquqi şəxslərin hüquqlarını və qanuni maraqlarını qorumaq məqsədi ilə onların mübahisəsiz hüquqlarını və faktları, sənədləri, sənədlərdən çıxarışları təsdiqləməli olan, sənədlərə icraedici qüvvə verən və digər notariat fəaliyyəti göstərən dövlət orqanları və vəzifəli şəxslərdir.

Notariat hüquq münasibətlərinin tərəf müqabilləri olan və öz hüquqlarını və qanuni maraqlarını müdafiə etmək üçün notariusa müraciət etmiş vətəndaşların (fiziki şəxslərin) və hüquqi şəxslərin mənafelərini müdafiə edərək fəaliyyət göstərir.

Notariat ixtisaslaşdırılmış hüquqi yardım göstərilməsi üzrə fəaliyyətin mülki yurisdiksiya istiqamətinin mühüm formasıdır. Notariat cəmiyyətdə xüsusi mülkiyyətin müdafiəsini və sahibkarlığın əsasını təşkil edən əmlak hüquqlarının şübhəsizliyini, mülki dövriyyənin iştirakçılarının hüquqlarının qorunmasını təmin edir.

Notariat fəaliyyətinin dinamikliyini təmin etmək üçün mövcud qanunvericiliyin müddəaları kifayət qədər deyil. Notariusun fəaliyyətinin qanuni əsasına müxtəlif dəyişikliklərin edilməsi tələb olunur.

Qanunun tətbiqi, əhaliyə göstərilən hüquqi yardımın səviyyəsinin yüksəldilməsi, o cümlədən notariat xidmətinin təkmilləşdirilməsi istiqamətində xeyli işlər görülmüş, əvvəllər bu orqanlarda mövcud olmuş neqativ halların aradan qaldırılması üçün təsirli tədbirlər həyata keçirilərək müsbət nəticələr əldə olunmuşdur.

Əhaliyə göstərilən notariat xidmətinin səviyyəsinin yüksəldilməsi və müasir tələblərə uyğun qurulması məqsədilə elm və texnikanın müasir nailiyyətlərindən, o cümlədən informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla bütün notariat kontorlarını əhatə edən kompüter şəbəkəsinin yaradılması üzrə tədbirlər görülmüşdür.

Etiraf etmək lazımdır ki, ölkəmiz son bir neçə il ərzində iqtisadi cəhətdən xeyli inkişaf edib, həmçinin əhalinin sosial rifahı da yaxşılaşdırılmışdır. Elə bu səbəbdən də artıq mülki münasibətlərin dairəsi genişlənib, mülki dövriyyə iştirakçılarının bağladıqları əqdlərin miqdarı artıb. Təbii ki, qeyd olunan müsbət dəyişikliklər vətəndaşların mənafelərinin daha səmərəli müdafiə olunması və onlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Məhz bu səbəbdən də ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində son illər notariat institutunda da islahatlar aparılıb. Bunun nəticəsində ölkədə fəaliyyət göstərən bir çox notariat kontorları rəsmi və doğru sənədlərin tərtibi üçün hüquqların, hüquqi əhəmiyyətli faktların təsdiqini və digər notariat hərəkətlərinin aparılmasını qanunla müəyyən edilmiş qaydada həyata keçirirlər. Məlumat üçün bildirək ki, notariuslar əqdləri və etibarnamələri təsdiq edir, miras əmlakın mühafizə olunması üçün tədbirlər görür, vərəsəlik hüququ haqqında

şəhadətnamələr verir, yaşayış evlərinin, mənzillərin açıq hərracdan əldə olunmasına dair şəhadətnamələr verir, sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünü, şəxsin sağ olması və ya müəyyən yerdə olması faktını, şəxslə fotoşəkildəki şəxsin eyniliyini, sənədlərin təqdim olunduğu vaxtı təsdiq edir. Bütün bunlarla yanaşı, sözügedən sahədə bəzi çatışmazlıqlar da mövcuddur.

Tədbirin keçirilməsində əsas məqsəd bu sahədə nəzərə çarpan çatışmazlıqları müzakirə etmək, onların həlli istiqamətində atıla biləcək addımları nəzərdən keçirmək olmuşdur. Eyni zamanda vətəndaş cəmiyyəti üzvləri ilə hakimiyyət nümayəndələrinin birgə dialoqunu qurmaq, ictimai müzakirələrin genişləndirilməsinə nail olmaq üçün dəyirmi masanın keçirilməsi məqsədəuyğun hesab edilmişdir. Bununla əlaqədar "Şəffaflıq Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İB-nin təşkilatçılığı ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, yerli qeyri-hökumət təşkilatları və beynəlxalq qurumların iştirakı ilə dəyirmi masa təşkil edilmişdir. Yekunda dəyirmi masanın gedişi zamanı aparılan müzakirələr, səsləndirilən fikirlər, irəli sürülən təkliflər ümumiləşdirilərək tövsiyyə halına salınıb və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə təqdim edilib.

Tövsiyələrin hazırlanmasında aşağıdakı şəxslərin fikirlərindən istifadə olunub.

- Rəna Səfərəliyeva, "Şəffaflıq Azərbaycan" İB-nin İcraçı Direktoru;
- Azər Talıbov, "Şəffaflıq Azərbaycan" İB-nin Baş hüquqşünası;
- Kənan Qasımov, "Şəffaflıq Azərbaycan" İB-nin Qrant məsələləri üzrə meneceri
- İradə Cavadova, İnsan Hüquqları üzrə Maarifləndirmə İctimai Birliyinin sədri;

## 2012- ildə TƏKLİF EDİLMIŞ TÖVSİYƏLƏRIN İCRASI

"Şəffaflıq Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İB tərəfindən 2012-c il 26 Aprel tarixində Ədliyyə Nazirliyi ilə birgə Notariat xidməti: problemlər və islahatlar mövzusunda keçirilən dəyirmi masada nazirliyin fəaliyyətinin daha da şəffaflaşdırılması, görülən işlərə vətəndaş cəmiyyəti üzvlərinin cəlb edilməsi istiqamətində irəliləyişlərin əldə olunması məqsədilə bir sıra tövsiyələr verilmişdir. Sevindirci haldır ki, ötən dövr ərzində təklif edilən bir sıra tövsiyələr nazirlik tərəfindən qəbul edilmiş, tövsiyələrin icrası ilə bağlı real addımlar atılmışdır.

- *ASAN xidmət mərkəzlərində notariat kontorlarının yaradılması, onların təşkilatı və kadr məsələləri ilə bağlı tövsiyələr verilmişdir*

Prezidentin 2012-ci il 13 iyun və 1sentyabr tarixli fərmanına əsasən Vətəndaşlara xidmət və sosial innovasiyalar üzrə dövlət agentliyi və dövlət agentliyi tərkibində vətəndaşlara dövlət orqanları tərəfindən xidmət göstərilməsini təmin edən ASAN xidmət Mərkəzlərinin yaradılması dövlət agentliyinin əsasnaməsini, onun strukturunu və fəaliyyətinin təşkilini, xidmət göstərilməsi qaydalarının təsdiq edilməsilə bağlı mərkəzdə fəaliyyət göstərəcək notariat kontorları təsdiq edilmişdir. Bu sahədə təcrübənin öyrənilməsi məqsədilə dövlət orqanlarının, müxtəlif orqanların Bakı şəhər 1 saylı ASAN xidmət mərkəzində fəaliyyət göstərən bölmələrinin əməkdaşları, o cümlədən dövlət notariusları 2013-cü ilin dekabrında Tbilisiyə ezam edilmiş, buradakı Ədliyyə Evi ilə görüşlər keçirmiş, həmin təsisatın işi ilə yaxından tanış olmuşdur. Eyni zamanda qeyd olunan qurumların normal fəaliyyətinin təmin edilməsini həyata keçirmək üçün onların zəruri avadanlıqlarla təchiz olunması və ƏN-in müvafiq informasiya sisteminə qoşulması təmin edilmişdir.

- *“Elektron notariat” avtomatlaşdırılmış sistemin yaradılmasına və fəaliyyət göstərməsinə dair tövsiyələr verilmişdir*

Qeydiyyat və notariat baş idarəsinin saytında elektron xidmətlər təşkil olunmuşdur və vətəndaşlar notariat kontoruna müraciət etmək üçün əvvəlcədən elektron qaydada yazıla bilərlər. Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında AR prezidentinin 2011-ci il 23 may tarixli fərmanının icrası ilə əlaqədar 2011-ci il 22 noyabrda istismara verilmiş Nazirliyin rəsmi internet informasiya ehtiyatındakı elektron xidmət bölməsində Ədliyyə orqanlarının iş rejimi, əlaqə məlumatları və xəritədə yerləşməsi, notariat hərəkətlərinin aparılması prosesində tələb olunan sənədlər, ödənişlər barədə informasiyanın əldə edilməsi, əvvəlcədən elektron müraciət əsasında notarius tərəfindən vətəndaşların qəbulu üzrə elektron xidmət təşkil edilmiş, vətəndaşların bu xidmətlərdən sərbəst istifadəsi təşkil olunmuşdur.
Notariat haqda və Yol hərəkəti haqqında qanunlarda edilmiş dəyişikliklərlə əlaqədar nəqliyyat vasitələrinin təkrar dövlət qeydiyyatının həyata keçirilməsi və müvafiq informasiyanın daşınar əmlakın rəsmi reyestrinə daxil edilməsini təmin etmək məqsədilə notariat sənədlərinin elektron məlumat bankı informasiya sistemi tərkibində xüsusi proqram təminatları hazırlanaraq əhali sürücülük vəsiqələri, nəqliyyat vasitələrinin qeydiyyat şəhadətnamələri, eləcə də nəqliyyat vasitələrinin üzərində həbs və digər məhdudiyyətlər barədə məlumatların saxlanıldığı, o cümlədən DİN tərəfindən aparılan dövlət informasiya ehtiyatları ilə real vaxt rejimində məlumat mübadiləsi təşkil olunmuşdur. Bunun nəticəsində notariusların məlumatları ilkin mənbədən əldə etməsi, etibarnamələrin təqdim olunması işinin avtomatlaşdırılması, etibarnamələr barədə daha dolğun informasiyanın toplanmasına imkan yaradılmışdır. Sistem eyni zamanda əvvəldən verilmiş etibarnamənin sonradan ləğv edilməsi barədə və həmin etibarnamə əsasında notariat hərəkətlərini rəsmiləşdirən notariusun məlumatlandırılması funksiyası ilə də təmin edilmişdir. İnformasiya sisteminin yeni imkanlarından səmərəli istifadə etmək üşün bütün notariat kontorlarında istismar edilən avadanlıqlar gücləndirilmiş, əməkdaşların bu sahədə biliklərinin artırılması ilə əlaqədar Bakı şəhərində və yerlərdə ixtisaslaşdırılmış təlim tədris tədbirləri keçirilmişdir.

- *Nazirliyin rəsmi veb səhifəsinin yaradılması istiqamətdə işlərin sürətləndirilməsi, sayt vasitəsilə məlumatların yayılmasının daha sürətli və operativ şəkildə təmin olunması tövsiyə olunurdu.*

Sevindirici haldır ki, artıq Nazirliyin veb səhifəsi fəaliyyət göstərir və sayt vasitəsilə məlumatlar mütəmadi qaydada vətəndaşlara çatdırılır.

- *Notariat kontorlarının, dövlət rüsumunu ödəmə şəraiti yaradan, elektron köşklərlə təmin edilməsinə dair tövsiyələr verilmişdir*

Bakı şəhərinin notariat kontorlarında quraşdırılmıış elektron xidmət köşkləri vasitəsilə vətəndaşlara digər xidmətlər göstərilməsilə yanaşı notariat hərəkətlərinin aparılmasına görə elektron qaydada nəğd ödənişləri həyata keçirmək imkanı təmin edilmişdir.

- *Notariat hərəkətlərinin aparılması üçün tədbiq olunan rüsumların artırılmasına dair tövsiyələr verilmişdir*

Keçən müddət ərzində notariat xidmətinin təşkilinə sərf olunan vəsait artırılmışdır. Bu da dövlət rüsumunun minimum məbləğdə müəyyən edilmiş dərəcələrinə yenidən baxılmasını zəruri edir. Cari ilin yanvarın 1-dən qüvvəyə minmiş dövlət rüsumu haqqında qanuna edilmiş dəyişikilərlə notariat hərəkətlərinə görə dövlət rüsumu və haqqlarda yeni məbləğ müəyyən edilmişdir. Dövlət rüsumu dərəcələrində dəyişikliklər notariat xidmətinin günün tələblərinə uyğun təşkili və

bununla bağlı notariat funksiyalarının yerinə yetirilməsinə şərait yaradılması, eyni zamanda müasir səpkidə xüsusi notariat xidmətinin formalaşmasına şərait yaratmışdır.

- *Xüsusi notariusların sayının artırılması barədə tövsiyələr verilmişdir*

Son zamanlar ölkəmizdə xüsusi notariusların sayı artmışdır, belə ki onların notariusların ümumi sayının 1/3 hissəsindən artığını təşkil etdiyi müşahidə olunur (35%). Qeyd edək ki, xüsusi notariusların sayının artırlmasına yenedə ehtiyac var.

- *Beynəlxalq təcrübənin və yaxın ölkələrin notariat sahəsində olan təcrübəsinin öyrənilməsi və müqayisə edilməsi barədə tövsiyələr verilmişdir*

Notariat xidməti üzrə dünya təcrübəsi, ələxsus da bizə yaxın dövlətlərin təcrübəsi mütəmadi olaraq öyrənilir və müqayisə edilir. Ötən dövr ərzində Ədliyyə Nazirliyinin Notarius nümayəndə heyəti Almaniya, Rusiya, Qazaxıstan, Gürcüstan, Ukraynada keçirilən konfrans və seminarlarda iştirak etmişdir. Habelə Notarius nümayəndə heyətinin təşəbbüsüylə Azərbaycanda bir sıra Beynəlxalq konfranslar və seminarlar təşkil edilmişdir.

- *Dövlət və xüsusi Notariusların elektron imzayla təmin olunması və onun istifadəsinə dair təlimlərin keçirilməsi barədə tövsiyələr verilmişdir*

Şəxsin birmənalı eyniləşdirilməsini tələb edən yeni növ elektron xidmətlərin təşkili məqsədilə müvafiq sənədlər hazırlanaraq Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə təqdim edilmiş və ədliyyə orqanlarının 300-ə yaxın rəhbər işçisi eləcə də xüsusi notariuslar elektron imza ilə təmin olunmuş, elektron imzanın tətbiq edilməsi ilə bağlı xüsusi təlimlər keçirilmişdir.

- *Nazirlik əməkdaşlarının və rəhbər şəxslərinin vətəndaşlarla mütəmadi görüşlərinin təşkil olunması, onların şikayətlərinin yerində dinlənilməsi və operativ həll olunması ilə bağlı tövsiyələr verilmişdi.*

Vətəndaşların yaşadıqları bölgələrdə nazirliyin rəhbərliyi səviyyəsində qəbulu və onların öz iştirakı ilə müraciətlərinə obyektiv və ədalətli şəkildə baxılması işləri davam etdirilmiş.

- *Televiziya və radio kanallarında əhaliyə mütəmadi olaraq Ədliyyə Nazirliyinin əməkdaşları və Vətəndaş Cəmiyyətinin subyektləri də cəlb edilməklə birgə maarifləndirici proqramların hazırlanması tövsiyə olunmuşdu*

Sevindirici haldır ki, ötən dövr ərzində televiziya kanallarında nazirliyin əməkdaşları və vətəndaş cəmiyyətinin üzvlərinin iştirakı ilə debatlar təşkil olunmuş, vətəndaşları maraqlandıran suallar cavablandırılmışdır.

Yuxarıda qeyd edilən tövsiyələrin icrası sevindirici haldır, lakin bu sahədə problemlərin tam həll edildiyini söyləmək olmaz. Təəssüflər olsun ki, 26 Aprel 2012-ci il tarixində keçirilən dəyirmi masanın Qanunvericilik bazasının təkmilləşdirilməsinə dair tövsiyələrinin Ədliyyə Nazirliyi və "Şəffaflıq Azərbaycan" təşkilatı tərəfindən Milli Məclisə təqdim olunmasına baxmayaraq qanunvericilikdə bugünədək heç bir dəyişikliklər olunmamışdır. Aşağıda icrası tam başa çatmayan və irəliləyişə ehtiyac duyulan istiqamətlərlə bağlı tövsiyələri təqdim edirik.

| mövzusunda keçirilən dəyirmi masanın qanunvericiliklə bağlı üzə çıxan problemləri barədə verilən tövsiyələr | |
|---|---|
| *Mövcud vəziyyət* | *Analiz* |
| Maddə 3. **Notarius**<br>Notariat fəaliyyəti ilə peşəkarcasına məşğul olan şəxs notarius adlanır.<br>Dövlət və ya xüsusi notarius kimi işləmək istəyən Azərbaycan Respublikasının hər bir vətəndaşı (bundan sonra - vətəndaş) ali hüquq təhsilli olmalı, mənəvi keyfiyyətlərə və peşə biliklərinə malik olmalıdır.<br>İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, şəxs, din xadimi vəzifəsinin icrası ilə bağlı əvvəllər qanunvericiliyin tələblərini pozduğuna görə işdən azad edilmiş, qanunla müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunan, əvvəllər cinayət törətmiş və buna görə məhkum olunmuş, barəsində notariat fəaliyyəti ilə məşğul olmasının məhdudlaşdırılması və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı çıxarılmış, habelə bəraətverici əsaslar olmadan cinayətin törədilməsi üzrə cinayət işinin xitam olunması haqqında qanuni qüvvəyə minmiş istintaq orqanı və ya məhkəmənin qərarı olan, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə notarius işləməyə qadir olmayan, 65 yaşına çatmış şəxs notarius ola bilməz.<br>Yuxarıda göstərilən tələblərə cavab verən və notarius olmaq istəyən vətəndaş notariat fəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamə (bundan sonra - şəhadətnamə) almalıdır.<br>Elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, notariusa sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq və digər haqqı ödənilən işləri yerinə yetirmək qadağandır.<br>Notarius istədiyi dövrdə hər hansı siyasi partiyada öz fəaliyyətini dayandırmalıdır.<br>Dövlət notariusuna "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məhdudiyyətlər də tətbiq edilir.<br>Notarius Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən Notariusun etik davranış kodeksinin tələblərinə riayət etməlidir. | Vətəndaşlar dövlət və xüsusi notarius vəzifəsinə götürülərkən onların əvvəllər hüquq sahəsində iş təcrübəsinin və müəyyən yaşa çatmaqla həyat təcrübəsinin olması mühüm amildir. Belə ki, notariusun fəaliyyətinin əsas xüsusiyyətlərindən biri apardığı notariat hərəkətlərinə görə bütün əmlakı ilə maddi məsuliyyət daşımasıdır və bu peşə yüksək dərəcəli risklə bağlıdır. |
| *Tövsiyə edirik ki,*<br>*Notarius vəzifəsinə təyin olunmaq üçün*<br>*1. Vətədaşın yaşı 30-dan aşağı olmamalıdır*<br>*2. Hüquq sahəsində azı 3 il iş təcrübəsinə malik olmalıdır* | |

*şərtləri əlavə olunsun.*

| *Mövcud vəziyyət* | *Analiz* |
|---|---|
| Maddə 9. **Notariusun vəzifələri**<br>2) hüquqi məlumatsızlığın onlara vura biləcəyi ziyanın qarşısını almaq üçün notariat hərəkətlərinin aparılması nəticələri barədə vətəndaşlara xəbərdarlıq etməlidir | Bəzi hallarda müxtəlif sahələrlə əlaqədar olaraq bağlanmış əqdlərin, müqavilələrin, sövdələşmələrin ləğv edilməsinə ehtiyac olur.<br>Belə ki, tərəflərdən biri (yaxud hər iki tərəf) bağışlamaqla əlaqədar qanunu başa düşmədiklərini bəhanə gətirirlər. Bu anlaşılmazlığı aradan qaldırmaq lazım gəlir. |

*Tövsiyə edirik ki,*
*tərəflərə bu məsələ ilə əlaqədar qanunun tələblərini izah edən xəbərdarlıq protokollaşdırılsın (aktlaşdırılsın).*

| *Mövcud vəziyyət* | *Analiz* |
|---|---|
| Maddə 13. **Notariat fəaliyyəti üzrə kargüzarlığın dili**<br>Azərbaycan Respublikasında notariat fəaliyyəti üzrə kargüzarlıq Azərbaycan Respublikasının dövlət dilində aparılır.<br>Notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxs kargüzarlığın aparıldığı dili bilmirsə və ya notariat hərəkətinin hər hansı dildə aparılmasını xahiş edirsə, notarius imkan daxilində tərəfindən rəsmiləşdirilən sənədlərin mətnlərini arzu edilən dildə tərtib edir və ya mətn tərcüməçi tərəfindən ona tərcümə edilir. | Notariat fəaliyyəti üzrə kargüzarlığın dili ilə əlaqədar Qanunun 13-cü maddəsində «imkan daxilində» ifadəsi norma yaradıcılığı baxımından yolverilməzdir və bundan subyektiv məqsədlər üçün istifadə edilə bilər. |

*Tövsiyə edirik ki,*
*«İmkan daxilində» ifadəsi dəqiqləşdirilsin.*

| *Mövcud vəziyyət* | *Analiz* |
|---|---|
| Maddə 23. **Xüsusi notariusların zəmanət kassaları**<br>Xüsusi notariusların müştərilər qarşısındakı məsuliyyətinə zəmanət vermək məqsədi ilə zəmanət kassası yaradılır. Zəmanət kassası xüsusi bank hesabından ibarətdir. Bu hesabın vəsaiti hər bir xüsusi notariusun həmin hesaba aybaay keçirdiyi aylıq gəlirinin 5 faizini təşkil edir.<br>Hər hansı xüsusi notarius tərəfindən ziyan qəsddən vurulmamış olduqda və vurulmuş ziyanın ödənilməsi üçün sığorta girovundakı vəsait kifayət etmədikdə məhkəmə qərarına əsasən zəmanət kassasının vəsaitindən istifadə edilir. | Notariusun vurduğu ziyanın ödənilməsinin təmin edilməsi üçün zəmanət kassalarından deyil, daha sadə olan sığorta mexanizmlərindən istifadə olunması məqsədə müvafiq hesab edilir. |

*Tövsiyə edirik ki,*
*Qanunun bu maddəsində dəyişiklik edilərək notariusların yalnız öz xidmətləri ilə bağlı məsuliyyətlərin sığorta etdirməsi tələbi qoyulsun.*

| *Mövcud vəziyyət* | *Analiz* |
|---|---|
| Maddə 28. **Notariat hərəkətlərini aparmaq hüquqlarının məhdudlaşdırılması**<br>Notarius və ya notariat hərəkətləri aparan digər vəzifəli şəxs tərəfindən öz adına və öz adından, əri- | Bu norma ümumi xarakterə malikdir, ailə üzvlüyünü konkret və dəqiq meyarlarını müəyyən etmir. Bundan əlavə, ayrı-ayrı normativ hüquqi aktlarda "ailə", "ailə üzvləri" |

| | |
|---|---|
| nin (arvadının), onun və özünün qohumlarının (valideynlərinin, uşaqlarının, nəvələrinin, babalarının, nənələrinin, həmçinin qardaşlarının, bacılarının, əmilərinin (dayılarının), bibilərinin (xalalarının), onların uşaqlarının) adına və bu şəxslərin adından, həmin notarius və ya notariat hərəkətləri aparan digər vəzifəli şəxs ilə bir yerdə işləyənin adına və onun adından notariat hərəkətlərinin aparılması qadağandır.<br>Müvafiq icra hakimiyyəti orqanlarının, həmçinin bu orqanın adına və onun adından notariat hərəkətləri aparmaq hüququ yoxdur.<br>Bu maddənin tələblərini pozmaqla aparılmış notariat hərəkətləri və onlara bərabər tutulan hərəkətlər etibarsız sayılır və məhkəmənin qərarı ilə ləğv edilməsi üçün əsasdır. | və ya "qohum" anlayışları həmin aktların məqsədlərinə görə müxtəlif məzmunda verilir.<br>Mülki Prosesual Məcəllə 19 qeyd<br>Qeyd: Bu Məcəllədə "qohum" dedikdə, babaya və nənəyə qədər əcdadları ümumi olan şəxslər, ər-arvadın yaxın qohumları, babanın, nənənin, valideynin, övladlığa götürənin, doğma və ögey qardaş və bacının, uşağın, övladlığa götürənin və ya nəvənin əri (arvadı) və ya onların yaxın qohumları nəzərdə tutulur. Yaxın qohumlara babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürənlər, nəvələr aiddirlər. |
| *Tövsiyə edirik ki,<br>«Notariat hərəkətlərini aparmaq hüquqlarının məhdudlaşdırılması» haqqındakı maddədə göstərilən ailə və qohumlar haqqındakı siyahı MPM-nin 19-cu maddəsindəki Qeydə uyğunlaşdırılsın və dəqiq siyahı verilsin.* | |
| *Mövcud vəziyyət* | *Analiz* |
| M a d d ə 3 5 . **Notariat hərəkətinin aparılması üçün müraciət etmiş şəxslərin şəxsiyyətinin müəyyən edilməsi, fəaliyyət qabiliyyətinin və imzalarının həqiqiliyinin yoxlanılması**<br>Notariuslar və notariat hərəkətləri aparan digər vəzifəli şəxslər hər bir halda müvafiq notariat hərəkətləri apararkən bunun üçün müraciət etmiş şəxslərin, onların nümayəndələrinin və ya idarələrin, müəssisələrin və təşkilatların nümayəndələrinin səlahiyyətini müəyyən etməlidirlər.<br>Əqdlər təsdiq edilərkən və Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulan hallarda bəzi başqa notariat hərəkətləri aparılarkən əqdlərin iştirakçılarının və notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş digər şəxslərin imzalarının həqiqiliyi yoxlanılmalıdır.<br>Əqdlər təsdiq edilərkən əqdlərdə iştirak edən şəxslərin fəaliyyət qabiliyyəti aydınlaşdırılmalıdır və hüquqi şəxslərin hüquq qabiliyyəti yoxlanılmalıdır. Əqd nümayəndə tərəfindən aparıldıqda onun səlahiyyəti yoxlanılmalıdır.<br>Notariat qaydasında təsdiq edilən əqdlər, habelə ərizələr və başqa sənədlər notariusun və ya notariat hərəkəti aparan digər vəzifəli şəxsin iştirakı ilə imzalanmalıdır. Əgər əqd, ərizə və ya başqa sənəd göstərilən vəzifəli şəxslərin iştirakı olmadan imzalanmışsa, onu imzalayan şəxs sənədi özünün imzaladığını şəxsən təsdiq etməlidir. Şəxs əqdi, ərizəni və ya başqa sənədi cismani qüsuruna, xəstəliyinə və ya hər hansı başqa səbəbə görə özü imzalaya bilmədikdə əqdi, ərizəni və ya digər sənədi onun tapşırığı ilə, onun iştirakı ilə və | Qanunun «Notariat hərəkətinin aparılması üçün müraciət etmiş şəxslərin səlahiyyətinin müəyyən edilməsi, fəaliyyət qabiliyyətinin və imzalarının həqiqiliyinin yoxlanılması» haqqındakı maddədə «fəaliyyət qabiliyyətinin» yoxlanılmasından danışarkən bu yoxlamanın nə cür aparılması yolları müəyyən edilməlidir. |

<table>
<tr><td>notariusun, yaxud notariat hərəkəti aparan digər vəzifəli şəxsin iştirakı ilə başqa şəxs imzalaya bilər. Belə halda notariat hərəkətinin aparılması üçün müraciət etmiş şəxsin sənədi özünün imzalaya bilmədiyinin səbəbi göstərilməlidir.<br>Notarius və müvafiq icra hakimiyyəti orqanı idarələrin, müəssisələrin, təşkilatların onlara məlum olan vəzifəli şəxslərinin şəxsi müraciətləri zamanı alınmış və həqiqiliyi şübhə doğurmayan imzalarının nümunələri vardırsa, həmin vəzifəli şəxslərin hər dəfə gəlməsini tələb etməyə bilərlər.</td><td></td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>«Fəaliyyət qabiliyyəti»nin yoxlanılması qeyri-müəyyən olduğu üçün bu ifadə dəqiqləşdirilsin.</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>Notariatın hüquqi statusunun müəyyənləşdirilməsinə dair məsələdə bəzi çətinliklərə rast gəlinir ki, bu da əsasən notariusun həqiqətənmi dövlət hakimiyyətinin daşıyıcısı olub-olmamağından və s. ibarətdir.</td><td>Bir tərəfdən notarius dövlətin təyin etdiyi nümayəndə kimi çıxış edir, digər tərəfdən isə tərəflərin azad məsləhətçisi kimi çıxış etdiyindən ikili xarakterə malikdir. Qanunvericiliyə görə notariuslar dövlət hakimiyyətinin daşıyıcıları deyillər, lakin notariat haqqındakı qanuna görə dövlət adından çıxış edirlər.</td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>Notariusların statusu dəqiq müəyyənləşdirilib aydınlaşdırılsın.</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>Notariusun notariat xidmətinin yerinə yetirilməsilə bağlı hüquqşünas ixtisasına malik işçiyə ehtiyac vardır.</td><td>Xarici ölkələrdə notariusların köməkçiləri vəzifələri mövcuddur və onlar notariat hərəkətinin aparılmasına hazırlıq işlərini yüksək səviyyədə həyata keçirirlər.</td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>Notarius köməkçisi vəzifəsi təsis edilsin, onların notariuslarla eyni qaydada seçilməsi və səlahiyyətləri qanunvericilikdə müəyyən edilsin.</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>Notariusları birləşdirən kollegial orqana zərurət vardır.</td><td>Üzvlük haqqı ilə maliyyələşdirilən notariusları birləşdirən orqan notariusların problemlərinin həll edilməsində və onların inkişafında mühüm rol oynaya bilər.</td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>Notariusları birləşdirən onların üzvlük haqqı ilə maliyyələşən Notariat Palatası təsis edilsin və qanunvericilikdə bu orqanın strukturu və səlahiyyətləri müəyyən olunsun.</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>Mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması səlahiyyətləri mənzillərin alqı-satqı və özəlləşdirilməsi məsələləri ilə Dövlət Əmlak Reyestr Xidmətihəyata keçirir. Qurum daxilində bir sıra reyestr xidmətləri fəaliyyət göstərir.</td><td>Aparılan müşahidələr göstərir ki, bununla bağlı vətəndaşlar korrupsiya və süründürməçilik halları ilə tez- tez qarşılaşırlar.</td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>Bu cür halların aradan qaldırılması üçün mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması səlahiyyətləri birbaşa notariuslara verilsin.</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
</table>

<table>
<tr><td>Notariusun Etik Davranış Kodeksi 2006-ci ildə beynəlxalq ictimaiyyətin dəstəyi ilə tərtib edilib və beynəlxalq standartlara tam cavab verir.</td><td>Bəzi hallarda notariatlarda vətəndaşlarla kobud rəftar olunur. Notariusun Etik Davranış Kodeksinin real təcrübədə işlənməsində problemlər mövcuddur. Notariusların maarifləndirilməsi, onlara etik davranış qaydalarının çatdırılması istiqamətində təlimlər keçsələrdə bu heç də bütün notariusları əhatə etmir. Həmçinin notariat kontorlarında çalışan personal üçün də bu sahədə treninqların keçirilməsi vacibdir.</td></tr>
<tr><td colspan="2">Tövsiyyə edirik ki,<br>Ədliyyə Nazirliyinə qeyri etik hərəkətlərlə bağlı şikayət edən vətəndaşların müraciətlərini qəbul etmək üçün qaynar xətt təsis olunsun və mütəmadi hesabatlar dərc edilsin.<br>Bu cür qeyri etik halların aradan qaldırılması üçün vətəndaş cəmiyyəti və digər tərəflər monitorinq işini həyata keçirməlidirlər.</td></tr>
<tr><td colspan="2">II. İDARƏETMƏNIN TƏKMILLƏŞDIRILMƏSI</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>Vətəndaşlar müxtəlif sənədləri təsdiq etdirmək üçün notariuslara müraciət etməli olurlar.</td><td>Müxtəlif sənədləri təsdiq etdirmək üçün vətəndaşlar notariuslara müraciət edərkən, notariata təqdim etmək üçün DİN-dən şəxsiyyəti təsdiq edən müxtəlif arayışları almalı olurlar. Lakin bu prosesdə vətəndaşlar müxtəlif çətinliklərlə üzləşirlər.</td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>müxtəlif sənədləri təsdiq edərkən vətəndaşların və notariusların üzləşdiyi çətinliklərin qarşısını almaq və onların işini yüngülləşdirmək məqsədi ilə şəxsiyyətin müəyyən edilməsi üçün DİN-nin elektron şəbəkəsindən notariusların özlərinin birbaşa məlumat almalarından ötrü notariuslara DİN-nin elektron şəbəkələrinə daxil olmaq imkanı verilsin.</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>Vətəndaşlar əmlak alqı-satqısı ilə əlaqədar notariuslarda müqavilə bağlayarkən dövlətə rüsum ödəməlidirlər. Hazırda dəyərinə görə əhəmiyyətli dərəcədə fərqlənən daşınmaz əmlakın özgəninkiləşdirilməsi müqavilələrinin notariat qaydasında təsdiqinə görə fiziki və hüquqi şəxslərdən eyni miqdarda dövlət rüsumu (xüsusi notariuslar tərəfindən eyni məbləğdə haqq) tutulur.</td><td>Bunun nəticəsində aşağı qiymətlə əmlak əldə edən şəxslər qiyməti yuxarı olan əmlak alanlara nisbətən daha yüksək dərəcə ilə rüsum ödəməyə məcbur olur. Alqı-satqı əməliyyatı zamanı bağlanan əqdlər üçün vətəndaşlardan alınan rüsumun miqdarı ilə bağlı müxtəlif məsələlər meydana çıxır. Məsələn, alqı-satqı zamanı nə mənzilin otaqlarının sayından, nə kvadraturasından, nə evin yerləşdiyi ərazidən, nə təmirindən və s. asılı olmayaraq bu əməliyyat zamanı vətəndaşlardan eyni miqdarda rüsum alınır.</td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>Alqı-satqı zamanı alınan rüsumun miqdarı mənzilin vəziyyətinə (mənzilin sahəsinin həcminə, mənzilin təmirinə, yerləşdiyi əraziyə və s.) görə hesablansın.</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>Digər notariat hərəkətlərinə görə tutulan rüsumun (haqqın) məbləği də bazar qiymətləriylə bağlı real vəziyyətə və xüsusi notariuslar tərəfindən bu xidmətin göstərilməsinə görə çəkdiyi xərclərə uyğun gəlmir.</td><td>Bundan başqa, vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilməsinə görə haqq tutulur və bu haqq miras əmlakın dəyərindən asılı olmayaraq eynidir. Yaxud qiymətləndirilən müqavilələrin dəyərindən</td></tr>
</table>

| | |
|---|---|
| | asılı olmayaraq eyni məbləğdə haqq tutulur. Şəxsin bütün əmlakının idarə edilməsi və onun üzərində sərəncam verilməsi və digər geniş səlahiyyətləri nəzərdə tutan etibarnamənin təsdiqinə görə bütün hallarda eyni məbləğ tutulur. Bu məsələlərlə bağlı ötən dəyirmi masada vərəsəlik şəhadətnaməsi,qiymətləndirilən müqavilələr və etibarnamələr təsdiqinə görə tutulan dövlət rüsumu və haqqın məbləği bu notariat hərəkətlərinin xüsusiyyətləri və mövcud bazar qiymətləri nəzərə alınmaqla müəyyən olunması tövsiyə olunmuşdur. Rüsumlarda artım müşahidə olunsada lakin bağlanan əqdlərin məbləğindən asılı olaraq proporsional qaydada rüsum tutulmur. |
| *Tövsiyə edirik ki,*<br>*Rüsumların ödəniləcək dərəcələri bağlanan əqdlərin dəyərindən asılı olaraq differensisasiya olunsun.* | |
| *Mövcud vəziyyət* | *Analiz* |
| Notariuslarda daşınmaz və müəyyən daşınan əmlakla əlaqədar əqd bağlanan zaman həmin əmlakın girovda olub olmaması haqqında məlumat tələb olunur. | Daşınmaz və müəyyən daşınan əmlakla əlaqədar əqd bağlayarkən vətəndaşlar əmlakın girovda olub-olmasına dair tələb edilən sənədləri əldə etmək istəyərkən müxtəlif çətinliklərlə, növbələrlə, süründürməçiliklərlə və s. üzləşməli olurlar. |
| *Tövsiyə edirik:*<br>*Daşınmaz və rəsmi reyestrdə üzərində mülkiyyət hüquqları qeydə alınan daşınar əmlakla əlaqədar əqd bağlanılan zaman onların girovda olub olmaması haqqında məlumat almaq üçün yaxşı olardı ki, notariuslar özləri müxtəlif növbələrin, süründürməçiliklərin qarşısını almaq məqsədi ilə, bəzi dövlətlərdə olduğu kimi dövlət reyestrinə daxil olaraq bu haqda məlumat ala bilsinlər.* | |
| *Mövcud vəziyyət* | *Analiz* |
| Mülki Məcəllənin alqı-satqı müqavilələri ilə bağlı müddəaları var. Notariat haqqında qanunda da alqı-satqının notariat kontorunda həyata keçirilməsi göstərilir. Lakin avtomobillərdən başqa. | NK-in 1999-cu il qərarında alqı-satqının DYP tərəfindən aparılması barədə müddəa yoxdur. Lakin orada bir məsələ var ki, alqı-satqı üçün muayinə arayışı tələb olunmalıdır. Notariat kontorları həmin arayışı DYP-dən ala bilmədikləri üçün, alqı-satqı DYP tərəfindən həyata keçirilir. |
| *Tövsiyə edirik ki,*<br>*Avtomibillərin alqı-satqısı Notariat kontorlarına həvalə olunsun.* | |
| *Mövcud vəziyyət* | *Analiz* |
| Vətəndaşlar vərəsəliklə əlaqədar müxtəlif məsələlərlə bağlı notariuslara müraciət edirlər. | Lakin vətəndaşlar vərəsəlik hüququnun təsdiq edilməsi üçün notariuslara müraciət edərkən onlara bu məsələ ilə bağlı notariata təqdim etmək üçün bir sıra sənədlər (ölüm kağızı, arxiv sənədləri və s.) əldə etmək lazım gəlir. Bu sənədləri əldə etmək prosesində vətəndaşların qarşısına müxtəlif çətinliklər çıxır. |
| *Tövsiyə edirik ki,* | |

| | |
|---|---|
| *Vərəsəlik hüququnun müəyyənləşdirilməsi zamanı lazım olan sənədlərin əldə edilməsində qarşıya çıxan çətinlikləri yüngülləşdirməkdən ötrü notariuslara rəsmi dövlət elektron şəbəkələrinə daxil olmaq imkanı verilsin.* | |
| *Mövcud vəziyyət* | *Analiz* |
| Notariat qaydasında təsdiq edilən əksər müqavilələr üzrə vəsaitin tərəflərdən birinin digərinə notariusun depozit hesabı vasitəsilə ödənilməməsi təcrübədə bu müqavilələrin icrası ilə əlaqədar vəsaitin məbləği və onun ödənilməsi qaydası ilə bağlı mübahisələrin yaranmasına səbəb olur. | Bununla bağlı müəyyən qurumların öz məqsədlərini güdməsi ilə bağlı çoxsaylı şikayətlər və məhkəmə çekişmləri müşahidə olunur. |
| *Tövsiyə edirik ki,* *Mülki dövriyyənin iştirakçıları arasında tərəflər üçün müvafiq təminatın yaradılması, hesablaşmalarda nağdsız ödəmələrin həcminin artırılması üçün qanunvericilikdə notariat qaydasında təsdiq edilən bütün müqavilələr üzrə vəsaitin tərəflərdən birinin digərinə notariusun bankda açdığı depozit hesabı vasitəsilə ödəməsini nəzərdə tutan dəyişikliklər edilməlidir.* | |
| *Mövcud vəziyyət* | *Analiz* |
| Notariat kontorlarında elektron köşklər quraşdırılıb. Elektron köşklər dövlət rüsumundan artıq məbləğin tutulmasının qarşısını ala bilər, həmçinin notariat orqanından dövlət büdcəsinə nə qədər vəsait daxil olduğunu dəqiqliklə göstərə bilir. | Lakin bu köşklərin işlək olmamasından və yaxud istifadə edilməsinin kontorlarda başa salınmamasından tez-tez şikayətlər daxil olur. Bununla bağlı təbliğat, maarifləndirmə, ictimaiyyətin məlumatlandırılması və s. əsasdır. |
| *Tövsiyə edirik ki,* *Elektron köşklərin istifadəsi ilə bağlı təbliğat, maarifləndirmə işi genişləndirilsin.* | |
| *Mövcud vəziyyət* | *Analiz* |
| Azərbaycan Respublikasında hal-hazırda 155 notarius fəaliyyət göstərir. Onun 1/3–dən çoxunu isə xüsusi notariuslar təşkil edir. Dövlət və xüsusi notariuslar hər ikisi göstərdikləri xidmət müqabilində eyni məbləğdə rüsum və xidmət haqqı alırlar. | Vergilər Məcəllsində edilmiş son dəyişikliklərə əsasən xüsusi notariuslar sahibkar subyekti kimi vergiyə cəlb olunur. Başqa sözlə, xüsusi notariusların fəaliyyəti sahibkarlıq fəaliyyəti kimi tanınır. Xüsusi notariusların sahibkarlıq subyekti kimi tanınmasını nəzərə alaraq, hesab edirik ki, xüsusi notarius ilə müştərilər qarşılqlı razılaşma yolu ilə notarial xidmətlərin göstərilməsi müqabilində ödəniləcək rüsum və xidmət haqqlarının müvafiq surətdə azaltmaq imkanlarına malik ola bilərlər. |
| *Tövsiyə edirik ki,* *Bununla bağlı qanunvericilikdə müvafiq müddəalar qəbul edilsin və sahibkarlıq subyekti kimi xüsusi notariuslara belə hüquq verilsin.* | |
| *Mövcud vəziyyət* | *Analiz* |
| Dövlət və xüsusi notariuslarda xidmətlərin göstərilməsi səviyyəsi qaneedici səviyyədə deyil. Belə ki, notariat kontorlarının bir çox hallarda o qədər də geniş olmayan məkanda fəaliyyət göstərməsi, işçilərinin sayının məhdud olması səbəbindən, bəzi kontoralarda əhalinin aşkar sıxlığı müşahidə edilir və bu bir çox hallarda növbətçilik prinsipinin pozulmasına gətirib çıxarır. Regionlarda notariusların sayı kifayət | Hesab edirik ki, əhaliyə xidmət səviyyəsinin artırılması məqsədilə bu məsələlərə yenidən baxılmalı, kontoralar daha geniş və işıqlı ərazilərə köçürülməli, eyni zamanda ASAN təcrübəsindən yararlanaraq, xidmətin elektron növbətçilik prinsipi əsasında qurulmasına çalışılmalıdır. |

| | |
|---|---|
| qədər deyil, bu isə öz növbəsində əlavə problemlərə gətirib çıxarır. Vətəndaşlar hansısa səndələrin təsdiqlənməsi üçün xeyli vaxt sərf etməli olurlar. | |

*Tövsiyə edirik ki,*

- *Kontoralar daha geniş və işıqlı ərazilərə köçürülsün.*
- *ASAN təcrübəsindən yararlanaraq, xidmətin elektron növbətçilik prinsipi əsasında qurulması istiqamətində işlər görülsün*
- *Regionlarda notariat kantorlarının sayı artırılsın*
- *Gələcəkdə regionlarda ASAN mərkəzləri yaradıldıqda mütəxəssis çatışmazlığı ortaya çıxarsa region notariusları bu mərkəzlərə köçürülsün.*

| *Mövcud vəziyyət* | *Analiz* |
|---|---|
| Ölkəmizin sosial-iqtisadi inkişafının sürətlənməsi, beynəlxalq əlaqələrin genişlənməsi, habelə vətəndaşların xaricə səfərlərinin artması tərcümə olunan sənədlərin çoxalmasına və bununla bağlı notariat orqanlarına müraciətlərin xeyli artmasına səbəb olub.<br>Lakin vətəndaşlar sənədlərin tərcüməsində bir sıra problemlərlə rastlaşır, o cümlədən tərcüməçi axtarışı ilə əlavə vaxt sərf edir, get-gələ düşür, tərcüməçi ilə notariat kontoruna gəlmək məcburiyyətində qalır, bəzi hallarda qeyri-peşəkar tərcüməçilərə müraciət edir ki, bu da xaricə göndərilən sənədlərin geri qaytarılmasına, vətəndaşların mənəvi və maddi ziyan çəkməsinə səbəb olur.<br>Sənədlərin elektron şəbəkə vasitəsilə təşkilinə artıq iyulun 13-dən start verilib. Hələlik bu şəbəkə Bakını əhatə edir. Amma yaxın gələcəkdə digər şəhər və rayonların notariuslarının bu şəbəkəyə qoşulması planlaşdırılır. | Regionlarda xarici dilləri bilən mütəxəssislər azdır. Ona görə də vətəndaşlar hansısa sənədin tərcüməsi üçün əksər hallarda Bakıya üz tuturlar. Bu isə həm vaxt, həm də vəsait itkisidir. Amma sənədlərin elektron şəbəkə vasitəsilə mərkəzləşdirilmiş şəkildə tərcüməsi bu problemin aradan qaldırılmasına gətirib çıxarda bilər. Digər bir problem isə tərcümə firmalarının işi ilə bağlıdır. Təsəvvür edin ki, həmin firmalar əsasən Bakı şəhəri 1 saylı dövlət notariat kontorunun yanında yaradılıb. Sənədlərin elektron şəbəkə vasitəsilə təşkili belə problemləri aradan qaldırır. Vətəndaşlar istənilən notariat kontoruna gedərək sənədlərini tərcümə etdirib təsdiqləyə bilərlər. Elə firmalar var ki, onlar sənədləri qüsurlu tərcümə edirlər. Həmin sənədlər notariusda təsdiqlənir və vətəndaş həmin sənədi xarici ölkələrdən birinə aparır. Sənədi hansısa idarəyə təqdim etdikdə qüsurlu tərcümə olunduğu üçün qəbul edilmir. Bu məsələylə bağlı xeyli sayda şikayətlər daxil olur. Ancaq sənədlərin tərcüməsinin elektron şəbəkə vasitəsilə təşkili nəticəsində bu cür hallar aradan qalxacaq. Üstəlik bu xidmət sözügedən sahədə rəqabəti gücləndirəcək, tərcümə edən firmalar bunun nəticəsində qiyməti endirməli olacaqlar. Bir sözlə, vətəndaşların seçim etmək imkanı artacaq. Onlar sənədlərini həm ucuz, həm dəqiq, həm də vaxt itkisinə yol vermədən elektron şəbəkə vasitəsilə tərcümə etdirməyə üstünlük verəcəklər. |

*Tövsiyə edirik ki,*

*Regionalarda yaşayan vətəndaşların da bu tərcümə xidmətindən yararlanması üçün sənədlərin elektron qaydada qəbulu və tərcüməsinin aparılması və təsdiqlənməsi üçün işlər sürətləndirilsin.*

| *Mövcud vəziyyət* | *Analiz* |
|---|---|
| Ölkədə 550 mindən artıq əlil vətəndaş var. Onların notariat orqanlarının xidmətlərindən istifadə etməsində məhdudiyyətlər mövcuddur. Belə ki, əksər notariuslarda, xüsusilə | Regionlarda və bir neçə şəhər notariuslarında aparılan monitorinqlər zamanı əlillərin notariat orqanlarının xidmətlərindən istifadəsində bir sıra problemlərin olduğu məlum olmuşdur. |

<table>
<tr><td>rayonlarda əlillərin nəinki notariat xidmətlərindən istifadə etməsi, həmçinin notariuslara rahat daxil olması üçün infrastruktur mövcud deyil.</td><td></td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>əlillərin notariat xidmətlərindən rahat istifadə edə bilməsi üçün şəhər və rayon notariuslarının girişində pantuslar quraşdırılsın.</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>"Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə, Nazirlər Kabinetinin 17 oktyabr 2012-ci il tarixli qərarına əsasən Ədliyyə Nazirliyi 17 adda elektron xidmət göstərməlidir. Bunlardan 3-ü birbaşa olaraq notariat xidmət tərəfindən göstərilməlidir.<br>1. Dövlət Notariat Arxivindən notariat hərəkətləri barədə məlumatın və onlarla bağlı sənədlərin surətlərinin verilməsi<br>2. Notariat kontorları və notariat hərəkətlərinin aparılması barədə məlumatın verilməsi<br>3. Ədliyyə orqanları və notariusların qəbuluna onlayn yazılış.<br>Ədliyyə nazirliyinin veb səhifəsindəki elektron xidmətlər bölməsində notariat başlığı altında bölmə fəaliyyət göstərir və həmin bölmədə vətəndaşlara 3 xidmət təklif edilir. Bunlardan biri Notariat hərəkətləridir. Bu bölmədə, Əqdlərin və etibarnamələrin təsdiq edilməsi, Vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilməsi, Ər-arvadın birgə nigah müddətində əldə etdikləri ümumi birgə əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamələrin verilməsi, Fiziki və hüquqi şəxslərin ərizələrinin başqa fiziki və hüquqi şəxslərə verilməsi və.s xidmətlərlə bağlı məlumatlar öz əksini tapıb.<br>Beynəlxalq təcrübədə notariusların informasiya təminatı məqsədilə elektron formatda Vərəsəlik reyestri, Etibarnamələrin vahid reyestri, Notariat sənədlərinin blanklarının vahid reyestri, Əqdlərin dövlət reyestri və Notariusların vahid reyestri mövcuddur. Azərbaycanda isə bu istiqamətdə bir sıra çatışmazlıqlar mövcuddur</td><td>Hər bir xidmətin başlığı altında həmin xidmətin göstərilməsi üçün lazım olan sənədlər və bu xidmət üçün tutulan məbləğ göstərilib. Bu bölmə Nazirlər Kabinetinin müvafiq siyahısına uyğun tərtib edilib. Amma əsas məqam ondan ibarətdir ki, bu xidmətləri elektron xidmət kimi qiymətləndirmək bir qədər çətindir. Belə ki, burada yalnız məlumatlandırma ön plana çıxır, amma xidmətlərin özü elektron qaydada göstərilmir.<br>Ədliyyə Nazirliyinin veb səhifəsindəki elektron xidmətlər bölməsində notariat başlığı altında fəaliyyət göstərən bölmədə notariat kontorları, onların ünvanı və əlaqə vasitələri barədə məlumat verilib. Digər bir bölmənin köməkliyi ilə isə notariusların qəbuluna onlayn qaydada yazılmaq mümkündür. Təcrübəmizə əsasən deyə bilərik ki, bu xidmət müəyyən qüsurları olmasına baxmayaraq işləkdir və istifadəyə açıqdır.<br><br>Uzun müddətdir haqqında söz açılmasına baxmayaraq hələ də e-notariusa keçidlə bağlı işlər görülmür. Bununla bağlı dünya təcrübəsinin dərindən öyrənilməsinə və ölkəmizin standartlarına uyğunlaşdırılaraq tətbiqinə ehtiyac var. Notarius xidmətlərinin elektron qaydada göstərilməsi həm vətəndaşların lazımsız vaxt itkisinin qarşının alınmasına, həm də şəffaflığın artırılmasına xidmət göstərmiş olar.</td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>• Elektron xidmətlər yalnız məlumatlandırıcı deyil, eyni zamanda real xidmət funksiyasını</td></tr>
</table>

<table>
<tr><td colspan="2">yerinə yetirsin.<ul><li>e-notariusun tətbiqi ilə bağlı beynəlxalq təcrübə öyrənilsin.</li><li>Notarius xidmətlərinin elektron qaydada göstərilməsi istiqamətində işlər sürətləndirilsin.</li><li>Notariusların informasiya təminatı məqsədilə elektron formatda Vərəsəlik reyestri, Etibarnamələrin vahid reyestri, Əqdlərin dövlət reyestri yaradılsın</li></ul></td></tr>
<tr><th>Mövcud vəziyyət</th><th>Analiz</th></tr>
<tr><td>2012-ci ilin dekabr ayından fəaliyyətə başlayan ASAN mərkəzlərində bütün notarial xidmətlərin göstərilməsi təqdirə layiq haldır. Son aylarda vətəndaş cəmiyyəti olaraq apardığımız müşahidələr əsasında deyə bilərik ki, notariat xidmətlər də daxil olmaqla bu mərkəzlərdə göstərilən xidmət səviyyəsi vətəndaşları qane edir. Amma digər notariuslar da olduğu kimi, ASAN mərkəzlərində fəaliyyət göstərən notariatların problemi müxtəlif dövlət qurumlarının məlumat bazalarına giriş imkanlarının həddindən artıq məhdud olmasıdır.</td><td>Məlumat bazalarına giriş imkanının olmaması vətəndaşları hansısa məlumatı vəya sənədi alaraq, onu yenidən notariusa gətirməyə məcbur edir. Bu isə öz növbəsində əlavə narazılıqlar və əsassız vaxt itkisinə səbəb olur. E-hökumətlə bağlı həyata keçirilən geniş layihələrin tərkib hissəsi olaraq bu məqam xüsusi diqqətdə saxlanılmalı və həmin prosesdə notariusların mütləq iştirakı təmin edilməlidir.</td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>Notariusların dövlət qurumlarının məlumat bazalarına giriş imkanları artırılsın.<br>Notarius xidmətlərindən istifadə edən vətəndaşlara aid olan bir sıra sənədlərə, birbaşa giriş imkanları yaradılsın.</td></tr>
<tr><th>Mövcud vəziyyət</th><th>Analiz</th></tr>
<tr><td>Notariatla bağlı daxil olan şikayətlərin tez bir zamanda araşdırılması məqsədi ilə müasir sistem yaradılmışdır. 440 42 87=88 nömrəli qaynar xətt formalaşıb və faliyyət göstərir.</td><td>Lakin, operativ lazımı məlumatın verilməsi, bu sistemin yaradılması, idarə edilməsi ilə bağlı vahid metodologiyanın olmaması və bu sahədə cavabdehlik daşınması üçün hüquqi öhdəliklərin göstərilməməsi effektliliyini bir qədər azaldır. Baxmayaraq ki, bu sahadə təkmilləşmə olub, amma təcrübə göstərir ki, sualların cavabı tez-tez anlaşılmaz və qeyri-müəyyən olur, operativ reaksiya təmin edilməmişdir və şikayətlərə baxılmasında ənənəvi metodların tətbiqi qalmaqdadır.</td></tr>
<tr><td colspan="2">Tövsiyyə edirik ki,<br>Bu sahədə cavabdehlik daşınması üçün müəyyən hüquqi öhdəliklər tədbiq edilsin.<br>Zənglərə cavab verən insanlar kvalifikasiya (müvafiq dərəcə) proqramları ilə təmin edilsin.<br>Qaynar xəttin fəaliyyətini qiymətləndirmək üçün analitik komitə yaradılsın və bu komitə tərəfindən Qaynar xəttin fəaliyyətinin qiymətləndirilməsinə dair hazırlanan hesabatlar mütəmadi qaydada mediada dərc olunsun.</td></tr>
<tr><th colspan="2">III. ŞƏFFAFLIĞIN ARTIRILMASI</th></tr>
<tr><th>Mövcud vəziyyət</th><th>Analiz</th></tr>
<tr><td>Vətəndaşlar və sahibkarlar müxtəlif mülki-hüquq münasibətlərinin iştirakçısı olurlar. Onlar bəzən hansısa əqdin təsdiq edilməsi məqsədilə və ya müəyyən hüquqi yardım almaqdan ötrü notariat kontorlarına müraciət edirlər. Təcrübə göstərir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər, o cümlədən kredit təşkilatları digər notariat hərəkətlərinin aparılması ilə yanaşı borcludan pul məbləğ-</td><td>İcra qeydi pul məbləğinin və ya hər hansı əmlakın tələbkarın xeyrinə borcludan tələb edilib alınması üçün notariusun verdiyi sərəncamdır. Notariusun apardığı icra qeydi məhkəmə qərarı ilə eyni hüquqa malikdir və birbaşa icraya yönəlir. «Məhkəmə qərarlarının icrası haqqında» qanununa əsasən notariusların icra qeydləri məhkəmə və digər orqanların qərarları kimi icra sənədləridir. Həmin icra</td></tr>
</table>

<table>
<tr><td>lərinin tutulması və ya əmlakın tələb edilib alınması üçün icra qeydlərinin aparılması məqsədilə də notariat xidmətindən istifadə edir.</td><td>sənədlərinin məcburi icrası məhkəmə icraçıları tərəfindən həyata keçirilir. Bununla əlaqədar məhkəmə icraçılarının tələbləri Azərbaycan ərazisində bütün orqanlar, hüquqi şəxslər, onların vəzifəli şəxsləri və fiziki şəxslər üçün məcburidir. Bu qanunun 8-ci maddəsinin tələblərinə görə icra sənədinin icraya yönəldilməsi bilavasitə müvafiq qərarı çıxarmış məhkəmənin və ya digər orqanın vəzifəsidir. Deməli, notarius icra qeydini apardıqdan sonra onu məhkəmə icraçılarına göndərməlidir.<br>Bazar iqtisadiyyatı şəraitində ölkə vətəndaşlarının böyük bir qismi sahibkarlıqla bağlı işlərini qurmaq məqsədilə kredit götürməyə meyl göstərirlər. Bunun da nəticəsində tələbkarlar və borclular əmələ gəlir. İdarə, müəssisə rəhbərləri, o cümlədən müxtəlif iş adamları icra qeydinin aparılması ilə əlaqədar notariat kontorlarına müraciət etsələr, heç bir problem olmadan pozulmuş hüquqlarının müdafiəsinə nail ola bilərlər. Çünki icra qeydlərinin aparılması ilə notariat xidmətindən istifadə edən hər bir sahibkar və iş adamı fəaliyyətləri ilə əlaqədar bağladıqları müqavilələrin etibarlılığına, qanuniliyinə, əmlaklarının mühafizəsinə, nisyə alınmış mallar üçün borcun alınmasına və borc, kredit məsələlərinin tez və müsbət həll olunmasına, eləcə də təsərrüfatın bütün sahələrində özlərinə zəmanət almış olarlar.</td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>Ölkəmizdə gedən inkişafın indiki mərhələsində notariusların icra qeydi aparmasının əhəmiyyəti barədə vətəndaşlar daha çox məlumatlandılsın. Onun əhəmiyyəti vətəndaşlara daha dolğun çatdırılsın.</td></tr>
<tr><td>Mövcud vəziyyət</td><td>Analiz</td></tr>
<tr><td>Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi notariat fəaliyyətinin təkmilləşdirilməsi üçün və onun işinin müasir tələblərə uyğunlaşdırılması məqsədi ilə elm və texnikanın son nailiyyətlərindən istifadə edir.</td><td>Notariusların fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə edilməsi həyata keçirilən islahatların vacib istiqamətlərindəndir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, notariat sistemində mövcud olan problemlərin həlli üçün informasiya-kommunikasiya texnologiyalarının tədbiqi böyük rol oynayır. Belə ki, fiziki və hüquqi şəxslərin mülkiyyət, vərəsəlik və digər hüquqlarının təmin edilməsi məqsədilə, bu sahədə təcrübədə mövcud olan çətinliklərin aradan qaldırılması, göstərilən hüquqi xidmətin keyfiyyətinin artırılması və buna sərf olunan müddətin azaldılmasına imkan verir.</td></tr>
<tr><td colspan="2">Tövsiyə edirik ki,<br>Notariat sistemində informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi genişləndirilsin.</td></tr>
</table>

| *Mövcud vəziyyət* | *Analiz* |
| --- | --- |
| Yeni inşa edilmiş və dövlət qeydiyyatına alınmamış çoxmənzilli yaşayış binasının tərkib hissəsinin alqı-satqısına dair müqavilələrin notariat qaydasında təsdiq edilməsi mümkün olmadığından, həmin mənzillər sadə müqavilə üzrə qeyri-rəsmi satılır və bununla da korrupsiya hallarının yaranmasına və vətəndaşların əmlak hüquqlarının pozulmasına şərait yaranır. Tikinti şirkətləri ilə bağlanan müqavilələr notarial qaydada təsdiq edilmir. Nə qədər ki, notarial qaydada təsdiq olunmur, bununla bağlı problemlər davam edəcək. Şirkətlərlə imzalanan müqavilələr əslində rəsmi sənəd hesab edilir və tikinti şirkətlərinin möhürü və rəsmi imzası ilə təsdiq olunur. Eyni halda həmin sənəddən məhkəmə predmeti kimi də istifadə edilə bilər. | Vətəndaşlar fırıldaqçı tikinti şirkətləri tərəfindən aldadılırlar . Bir mənzil bir neçə nəfərə necə satıla bilər? Korrupsiyaya qarşı mübarizə baş idarəsində belə məsələlərlə bağlı 14-dən artıq cinayət işi var. Bu cür şübhəli işlərlə bağlı bina hələ tikilməkdə ikən notariat orqanında təsdiq olunsa əmlakın yenidən ikinci şəxsə satılmasının qarşısı alına bilər. |
| *Tövsiyə edirik ki,*<br>*Dövlət qeydiyyatına alınanadək çoxmənzilli yaşayış binalarının tərkib hissələrinin alqı-satqısına dair ilkin müqavilənin və bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsinə dair müqavilələrin notariat qaydasında təsdiq edilməsi üçün qanunvericilikdə dəyişikliklər edilsin.* | |

| *Mövcud vəziyyət* | *Analiz* |
| --- | --- |
| Azərbaycanda torpaq və əmlakın qiymətləndirilməsində qanunvericiliyə yeni edilən dəyişikliklərlə gətirilən üsul təcrübədə hələ də işlək və səmərəli deyil. Belə ki, "Dövlət ehtiyacları üçün torpaqların alınması haqqında" Qanuna görə torpağın bazar qiyməti torpağın siyahıya alınma tarixindən əvvəlki üç ay ərzində alınan torpağa uyğun torpağın NOTARİAT qaydada təsdiq edilmiş alqı-satqı müqavilələrində göstərilmiş 3 ən yüksək qiymətin orta göstəricisi əsasında müəyyən edilir. | Lakin torpağın bazar qiymətinin müəyyən edilməsinin bu ilkin üsulu təcrübədəki reallıqları nəzərə almadığı üçün ədalətli kompensasiyanın təmin edilməsinə mənfi təsir edir. Belə ki, torpağın bazar qiymətinin müəyyən edilməsi üçün alınan torpağa uyğun torpağın NOTARİAT qaydada təsdiq edilmiş alqı-satqı müqavilələrində göstərilmiş 3 ən yüksək qiymətinin orta göstəricisinin nəzərə alınması təcrübədə əksər hallarda real bazar qiymətlərini göstərməyə bilir. Çünki, mülkiyyət bazarında alıcı və satıcılar adətən vergilərdən yayınmaq üçün alqı-satqı əməliyyatlarını daha aşağı qiymətlərlə sənədləşdirirlər.<br>Bundan başqa, notariat orqanının qeydiyyata almış olduğu alqı-satqı əməliyyatları arasından 3 ən yüksək qiymət göstərilmiş alqı-satqı əməliyyatını seçmənin şəffaflığı və bu əməliyyatlar barədə məlumatlara maraqlı tərəflərin (müstəqil qiymətləndiricilərin, mülkiyyətçilərin və digər maraqlı şəxslərin) çatımlıq imkanı da mövcud deyil. Azərbaycanda əmlak bazarının yaxşı sənədləşdirilməmiş olması, həmçinin, bazar |

| | |
|---|---|
| | qiymətlərinin müəyyənləşdirilməsinin torpağı almağa maraqlı olan dövlət tərəfindən həyata keçirilməsi əmlakın qiymətləndirilməsinə mənfi təsir edir. Bu sahədə daşınmaz əmlak üzrə əməliyyatların sənədləşdirilməsi işində notariat orqanlarının elektron məlumat sisteminin yaradılması olduqca vacibdir. Bu həm daşınmaz əmlak mülkiyyətçilərinə əmlakın özgəninkiləşdirilməsi halında notariat orqanına əmlak reyestrindən əlavə sənədlər təqdim etmək üçün sərf olunan vaxtın da aradan qaldırılmasına kömək etmiş olacaqdır. Notariat orqanları artıq özləri qeydiyyata alınmış hər hansı bir əmlak ilə bağlı əməliyyatı qeydə alarkən daşınmaz əmlakın reyestri bazasına çıxışı vasitəsi ilə elektron qaydada daşınmaz əmlak barədə məlumatları avtomatik şəkildə real vaxt rejimində əldə etmiş olur. Bu isə həm bu prosesdə itirilən vaxtın azalmasına, həm də daşınmaz əmlakın daha təhlükəsiz sənədləşdirilməsinə kömək etmiş olacaqdır. |
| *Tövsiyə edirik ki,*<br>*Daşınmaz əmlak üzrə əməliyyatların sənədləşdirilməsi işində notariat orqanlarının elektron məlumat sistemi yaradılmalıdır, notariat orqanlarına DƏRX-nin elektron bazasına çıxış verilməlidir. Bu həm də korrupsiyaya qarşı mübarizə işində atılmış mühüm addımlardan ola bilər.* | |

| *Mövcud vəziyyət* | *Analiz* |
|---|---|
| Notariat hərəkətlərini aparmağa müvəkkil edilmiş şəxslər hüquqi xidmətlər göstərir və məsləhətlər verir, eləcə də bağlanılan əqdlərdə təsbit edilmiş hüquq və vəzifələrin yerinə yetirilməsi üçün dövlət zəmanətini təmin edir. Bununla da fiziki və hüquqi şəxslərin hüquqlarının qorunması üçün məsuliyyəti öz öhdələrinə götürürlər.<br><br>Dövlət notariusları əqdləri və etibarnamələri təsdiq edir, miras əmlakın mühafizə olunması üçün tədbirlər görür, vərəsəlik hüququ haqqında şəhadətnamələr verir, yaşayış evlərinin, mənzillərin açıq hərracdan əldə olunmasına dair şəhadətnamələr verir, sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünü, şəxsin sağ olması və ya müəyyən yerdə olması faktını, şəxslə fotoşəkildəki şəxsin eyniliyini, sənədlərin təqdim olunduğu vaxtı təsdiq edir və digər bir çox önəmli prosedurlarda vasitəçi rolunu oynayır. | Ölkə iqtisadiyyatının durmadan inkişafı ilə bağlı notariat fəaliyyətinin genişlənməsi günün tələbidir.Notariat institu ilə bağlı xüsusilə iş adamlarını məlumatlandırmaq, bu xidmətlərin önəmi barədə ictimaiyyətin, xüsusilə də yerli iş adamlarının maarifləndirilməsinə dəstək vermək vacibdir.Fiziki və hüquqi şəxslərin hüquqlarının qorunması, eləcə də ölkənin iqtisadi inkişafında notariat institututunun rolu haqqında Azərbaycan cəmiyyətinin kifayət qədər məlumatı yoxdur. |
| *Tövsiyə edirik ki,*<br><br>*İstər daşınmaz əmlakla bağlı hüquqların qeydiyyatı, istərsədə digər əməliyyatların həyata* | |

*keçirilməsi, göstərilən xidmətlərin növləri, pullu xidmətlər üçün tariflər, xidmətin həyata keçirildiyi ünvan, veb səhifələr və s. göstəriciləri özündə əks etdirən bukletlərin, yaddaşların, eyni vəsaitlərin kütləvi nəşri və əhali arasında yayılması üçün həm müvafiq dövlət strukturları, həm də vətəndaş cəmiyyəti strukturları tədbirlər həyata keçirməlidirlər.* Rusumlarla *bağlı muvafiq Elan lövhəsi gözlə* rahat görülən ve oxunulan *şriftlərlə qeyd edilib munasib bir yerdən asılsın. Qeyd olunan bu tip neqativ halların qarşısının alınması məqsədilə cavabdeh orqanlar notariat kontorlarında özbaşınalığa qarşı mübarizəni gücləndirsin; televiziya və radio kanllarında əhaliyə mütəmadi olaraq Ədliyyə Nazirliyinin əməkdaşları və Vətəndaş Cəmiyyətinin subyektləri də cəlb edilməklə birgə maarifləndirici proqramlar hazırlansın*.